# İsmayıllı: Sahibkarlığın inkişafına iqtisadi və mənəvi dəstək

## *Sahibkarların rayon konfransından qeydlər*






Son onillikdə Azərbaycanın dünya miqyasında sosial-iqtisadi inkişafına görə öncül yerlərə çıxması, hətta regionda lider dövlət kimi özünü təsdiqləməsi vaxtilə "Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur" deyən ulu öndər Heydər Əliyevin müəyyən etdiyi sahibkarlığın inkişafı strategiyasının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsinin təzahürləri kimi dəyərləndirilir. İldən-ilə əldə olunan uğurlar ölkəmizdə sahibkarlıq fəaliyyətinin Azərbaycanın sosial-iqtisadi həyatına öz möhürünü vurmasından aydın xəbər verir. Bunu İsmayıllı rayonunun timsalında da aydın görmək olar. Mübaliğəsiz qeyd etmək olar ki, bu rayonda son iki-üç ildə əsl sıçrayış açıq-aydın hər sahədə görünür. Rayonun tikinti-quruculuq, abadlıq həyatında, iqtisadi mənzərəsində bir-birindən daha sevindirici olan göstəricilər qazanılır. Bunun bir səbəbi İsmayıllıda yüksək işgüzarlıq, təşəbbüskarlıq, qayğıkeşlik, eyni zamanda məqsədyönlü prinsipiallıq mühitinin yaradılmasıdırsa, digər ən əsas, bəlkə də bütün istiqamətlərdə müşahidə olunan yüksək inkişafın əsas stimulverici amili olan sahibkarlıq fəaliyyətinin önə çıxmasıdır.

Qeyd edək ki, rayon icra hakimiyyətinin başçısı, iqtisad elmləri doktoru, professor Mirdaməd Sadıqov bütün görüşlərində, iş adamları, sahibkarlar, ümumilikdə bütün vətəndaşlarla görüşlərində vurğulayır ki, sahibkarlığa dövlətin dəstəyi və qayğısı bir an olsun belə gündəmdən düşmür, ölkə başçısının bu sahədəki strategiyası rayonun bütün sahələrinin sosial-iqtisadi inkişafının proqramıdır.

Bu günlərdə rayonda "Sahibkarlığın inkişafının prioritet istiqamətləri, ona iqtisadi və mənəvi dəstək göstərilməsi yolları" mövzusunda keçirilən konfransı giriş sözü ilə açan rayon rəhbəri yuxarıdakı fikirləri bir daha xatırladaraq qeyd etdi ki, sahibkarlığa olan bütün maneələr aradan götürülüb. Vurğuladı ki, adı çəkilən növbəti tədbirdə də sahibkarlar öz işlərindən, problemlərindən, qarşılarında duran vəzifələrindən hərtərəfli söhbət açmalı, respublikanın müvafiq qurumlarının konfransa dəvət olunan nümayəndələrinə öz tələb, təkliflərini, müraciətlərini çatdırmalıdırlar.

Verilən istiqamət sözügedən konfransın işinin qarşılıqlı fikir mübadiləsi, fəaliyyətin daha da yaxşılaşdırılması yönümündə qurdu. Qeyd edək ki, rayonun sahibkarlarının, iş adamlarının, idarə, müəssisə rəhbərlərinin dəvət olunduğu konfransa İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Elçin İbrahimov, Sahibkarlığa Kömək Milli Fondunun Sahibkarlığın İnkişafı şöbəsinin baş məsləhətçisi Anar Məmmədov, Vergilər Nazirliyinin Vergi Siyasəti və Strateji Araşdırmalar Baş İdarəsinin rəisi Nicat İmanov, Kənd Təsərrüfatı Nazirliyi Aqrar Elm Mərkəzinin direktoru, iqtisad elmləri doktoru, professor Rəsul Balayev də dəvət edilmişdilər. Əvvəlcə İsmayıllı Rayon İcra Hakimiyyəti başçısının müavini M.Süleymanovun "Sahibkarlığın inkişafının prioritet istiqamətləri, ona iqtisadi və mənəvi dəstək göstərilməsi yolları" barədə məruzəsi dinlənildi. O, qeyd etdi ki, İsmayıllıda da sahibkarlığın inkişafının sürətləndirilməsinə, rayonun sosial-iqtisadi problemlərinin həllində sahibkarların rolunun artmasına ciddi fikir verilir. Rayonda sahibkarlığın inkişafı üçün çox əlverişli mühit yaradılmışdır. İş adamları ilə vaxtaşırı görüşlər keçirilir, onların qaldırdıqları bütün problemlərin həllinə səlahiyyətlər daxilində əməli köməklik göstərilir, fəaliyyətlərinə müdaxiləyə yol verilmir. 2013-cü ildən 2015-ci ilin sentyabr ayına kimi sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün müxtəlif məsələlərlə əlaqədar icra hakimiyyətinə müraciət etmiş 48 hüquqi və fiziki şəxsə başçı tərəfindən müvafiq sərəncam verilmişdir. Hazırda rayonda xüsusi mülkiyyətdə olan 71 aktiv fəaliyyət göstərən sahibkarlıq obyekti olan hüquqi şəxs və torpaq mülkiyyətçilərindən başqa 864 nəfər fiziki şəxs fəaliyyət göstərir. Bu obyektlər kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olur. İstehsal olunan ümumi məhsulda özəl sektorun xüsusi çəkisi ildən-ilə artır. 2013-cü ildə ümumi məhsulun 74 faizi özəl sektorda istehsal olunduğu halda, 2014-cü ildə bu göstərici 85 faiz təşkil etmişdir. 2014-cü ildə ümumi məhsulun 42 faizdən çoxu kənd təsərrüfatının payına düşür.

Konfransda vurğulandı ki, rayonda sahibkarlıq obyektləri inşa olunduqda İsmayıllının müasir və abad bir məkana çevrilməsi də öncədən götür-qoy edilir. Yeni tikilən obyektlər göz oxşayır, memarlıq baxımından şəhərə xüsusi gözəllik gətirir. "Saat meydanı"nın inşaası barədə rayon ictimaiyyəti ilə qarşılıqlı fikir mübadiləsi aparılmış və bu məqsədlə hazırlanan layihə onlara təqdim olunmuşdur.

Konfransdakı məruzə və çıxışlardan o da aydın oldu ki, Qubaxəlilli kəndində "Aqropark"ın, N.Nikitin adına kollektiv təsərrüfatın bazasında "Aqrar şəhərcik"in yaradılması, ət və süd emalı sahələrinin, qarışıq yem və un istehsalı müəssisəsinin, Təzəkənd, Kürdmaşı, Qalagah kəndlərində fermer mağazalarının açılması, bir çox kəndlərdə istixana təsərrüfatının, Qubaxəlilli, Kəlbənd, Keyvəndi kəndlərində iri heyvandarlıq, Mollaisaqlı, Gəraybəyli, Quşencə, Qalıncaq kəndlərində quşçuluq təsərrüfatlarının yaradılması nəzərdə tutulmuşdur. Turizmin işkişafına diqqət gücləndiriləcək.

Rayonda yeni fəaliyyətə başlayan tikiş fabrikinin direktoru Lətifə Əliyevanın çıxışında isə iki mühüm amil – işçi qüvvəsinin cəlb olunması və satış bazarının vacibliyi irəli sürüldü. Xanım sahibkar tikiş fabrikində işçilərin əmək haqqından, marketinqlərin fəaliyyətinə xüsusi diqqət yetirilməsindən də danışdı.

Konfransda rayondakı "Sandal" ayaqqabı sexinin rəhbəri Rüstəm və "Azza-Aqro" MMC-nin icraçı direktoru Nəriman Hüseynov da çıxış etdilər. "Azza-Aqro" MMC-nin icraçı direktoru çıxışında böyük heyvandarlıq kompleksinin bu ilin dekabrına kimi istifadəyə veriləcəyini və orada standartlara cavab verən heyvandarlıq məhsulları istehsal olunacağını söylədi.

İşgüzar müzakirəyə çevrilən konfransa rayon icra hakimiyyətinin başçısı Mirdaməd Sadıqov yekun vurarkən bildirdi ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qarşıya qoyduğu bütün vəzifələrin layiqincə yerinə yetirilməsində ismayıllılar bundan sonra da ön sıralarda gedəcək, rayonda sahibkarlıq fəaliyyətinin daha da genişləndirilməsinə, iqtisadiyyatın daha da möhkəmləndirilməsinə sanballı töhfələr verəcəklər.

Axırda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul olundu.

**Rasim AMANOV,**
**"Respublika".**